AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THE THREAT OF RELIGIOUS EXTREMISM IN THE REPUBLIC OF AZERBAIJAN AND WAYS TO COMBAT EXTREMISM

**Aslan Sultanov**[1]

**UDC:** 323.28:316.74:342.7(479.24)
**LBC:** 66.3(5Azer):60.5:54:86.3
**HoS:** 60
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.48-58

**Keywords:**

Religious extremism,
Multiculturalism,
Legal struggle,
Azerbaijan,
State security

## ABSTRACT

This article explores the threats that religious extremism poses to the stability of society, national unity, and social harmony in the Republic of Azerbaijan, as well as the responses of the state and society to this threat. The increase in religious extremism in Azerbaijan is linked to the influence of other countries in the region and is exacerbated by issues in the social, economic, and educational sectors. The article highlights the strategies of the Azerbaijani state in combating religious extremism, innovations implemented in the legislation in this area, and the importance of multiculturalism policies. It also focuses on the responsibility of religious leaders and media organizations in the fight against extremism. These measures are aimed at minimizing the impact of religious extremism on Azerbaijani society and strengthening security. The article emphasizes the need to improve socio-economic conditions, increase religious education, and the importance of cooperation between the state and society in combating extremism. Thus, this multi-faceted approach serves to ensure Azerbaijan's security and preserve peaceful coexistence in society.

[1] Advisor of the Department for Religious Issues of the State Committee on Affairs with Religious Associations of the Republic of Azerbaijan, Master's student at the Faculty of "Advanced Training for Executive Personnel" of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan; Baku, Azerbaijan
E-mail: aslan.sultanov@scara.gov.az
https://orcid.org/0009-0007-4087-9469
**To cite this article:** Sultanov, A. [2025]. The Threat of Religious Extremism in the Republic of Azerbaijan and Ways to Combat Extremism. *History of Science journal*, *6*(2), pp.48-58.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.48-58

***Article history:***
*Received: 25.03.2025*
*Accepted: 02.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# AZƏRBAYCAN RESPUBLİKASINDA DİNİ EKSTREMİZM TƏHLÜKƏSİ VƏ EKSTREMİZMƏ QARŞI MÜBARİZƏ YOLLARI

**Aslan Sultanov**[1]

**UOT:** 323.28:316.74:342.7(479.24)
**KBT:** 66.3(5Azər):60.5:54:86.3
**HoS:** 60
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.48-58

**Açar sözlər:**

Dini ekstremizm, multikulturalizm, Hüquqi mübarizə, Azərbaycan, Dövlətin təhlükəsizliyi

## ANNOTASİYA

Bu məqalə Azərbaycan Respublikasında dini ekstremizmin cəmiyyətin sabitliyinə, milli birliyə və sosial harmoniyaya yaratdığı təhlükələri və bu təhlükəyə qarşı dövlətin və cəmiyyətin göstərdiyi reaksiyaları araşdırır. Dini ekstremizmin Azərbaycanda artması, regiondakı digər dövlətlərin də təsiri ilə əlaqəli olub, sosial, iqtisadi və təhsil sahələrindəki problemlərlə də güclənir. Məqalə, Azərbaycan dövlətinin dini ekstremizmlə mübarizə strategiyalarını, qanunvericilikdə bu sahədə həyata keçirilən yenilikləri və multikulturalizm siyasətinin önəmini vurğulayır. Eyni zamanda, ekstremizmlə mübarizədə dini liderlərin və media qurumlarının məsuliyyətinə diqqət çəkir. Bu tədbirlərin Azərbaycan cəmiyyətində dini ekstremizmin təsirlərini minimuma endirməyə və təhlükəsizlik mühitini gücləndirməyə yönəldiyi qeyd edilir. Məqalə, ekstremizmlə mübarizə üçün sosial-iqtisadi şəraitin yaxşılaşdırılması, dini maarifləndirmənin artırılması və dövlət-cəmiyyət əməkdaşlığının vacibliyini vurğulayır. Beləliklə, bu çoxşaxəli yanaşma Azərbaycanın təhlükəsizliyini təmin etməyə və cəmiyyətin birgəyaşayışını qorumağa xidmət edir.

[1] Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini məsələlər üzrə şöbəsinin məsləhətçisi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Rəhbər kadrların yenidən hazırlanması" fakültəsinin magistrantı; Bakı, Azərbaycan
E-mail: aslan.sultanov@scara.gov.az
https://orcid.org/0009-0007-4087-9469
**Məqaləyə istinad:** Sultanov, A. [2025]. Azərbaycan Respublikasında Dini Ekstremizm Təhlükəsi və Ekstremizmə Qarşı Mübarizə Yolları. *History of Science jurnalı*, 6(2), səh.48-58.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.48-58

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 25.03.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 28.04.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# УГРОЗА РЕЛИГИОЗНОГО ЭКСТРЕМИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ И ПУТИ БОРЬБЫ С ЭКСТРЕМИЗМОМ

**Аслан Султанов**[1]

**УДК:** 323.28:316.74:342.7(479.24)
**ББК:** 66.3(5Азер):60.5:54:86.3
**HoS:** 60
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.48-58

**Ключевые слова:**

Религиозный Экстремизм, Мультикультурализм, Правовая борьба, Азербайджан, Безопасность государства

## АННОТАЦИЯ

Эта статья исследует угрозы, которые религиозный экстремизм представляет для стабильности общества, национального единства и социальной гармонии в Азербайджанской Республике, а также реакции государства и общества на эту угрозу. Увеличение религиозного экстремизма в Азербайджане связано с влиянием других государств региона и усугубляется проблемами в социальной, экономической и образовательной сферах. В статье подчеркиваются стратегии государства Азербайджан в борьбе с религиозным экстремизмом, новшества, реализуемые в законодательстве в этой области, и важность политики мультикультурализма. Также внимание уделяется ответственности религиозных лидеров и медиа-организаций в борьбе с экстремизмом. Указывается, что эти меры направлены на минимизацию воздействия религиозного экстремизма в азербайджанском обществе и укрепление безопасности. Статья акцентирует внимание на необходимости улучшения социально-экономических условий, повышения религиозного просвещения и важности сотрудничества государства и общества в борьбе с экстремизмом. Таким образом, этот многосторонний подход служит обеспечению безопасности Азербайджана и сохранению совместного существования в обществе.

[1] Советник отдела по религиозным вопросам Комитета по работе с религиозными структурами Азербайджанской Республики, Магистрант факультета «Переподготовка руководящих кадров» Академии государственного управления при Президенте Азербайджанской Республики; Баку, Азербайджан
E-mail: aslan.sultanov@scara.gov.az
https://orcid.org/0009-0007-4087-9469

**Цитировать статью:** Султанов, А. [2025]. Угроза Религиозного Экстремизма в Азербайджанской Республике и Пути Борьбы с Экстремизмом. *Журнал History of Science*, *6*(2), с.48-58.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.48-58

***История статьи:***
*Статья поступила в редакцию: 25.03.2025*
*Отправлена на доработку: 28.04.2025*
*Принята для печати: 02.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

### *1.Giriş*

Azərbaycan Respublikasında dini ekstremizm son illərdə cəmiyyətin təhlükəsizliyini və milli birliyi təhdid edən ciddi sosial problemlərdən birinə çevrilmişdir. Müasir dünyada dini ekstremizmin yayılması və onun törətdiyi fəsadlar, dövlətin stabilliyini və ictimai harmoniyanı pozmaqla yanaşı, digər sahələrdə də mənfi təsirlər göstərir. Bu problemə qarşı mübarizə aparmaq, təkcə hüquqi tədbirlərlə kifayətlənməyib, həm də maarifləndirmə və multikulturalizm dəyərlərinin təşviqi ilə mümkündür. Azərbaycan dövləti bu təhdidə qarşı milli təhlükəsizlik strategiyasında xüsusi yer ayırır və multikulturalizmi dini ekstremizmlə mübarizədə mühüm vasitə kimi dəyərləndirir.

Bu baxımdan, tədqiqatın əsas məqsədi Azərbaycanda dini ekstremizmə qarşı həyata keçirilən tədbirləri və bu tədbirlərin effektivliyini təhlil etməkdir. Tədqiqatda ekstremizmin sosial və psixoloji köklərini, ekstremizmə qarşı tətbiq olunan hüquqi və institusional mexanizmləri araşdırmaq üçün analitik və sistemli yanaşma metodlarından istifadə edilmişdir.

Ədəbiyyata töhfə olaraq, tədqiqat dini ekstremizmin Azərbaycan cəmiyyətindəki sosial və siyasi təsirlərini və bu problemin həllində dövlətin rolunu dərin şəkildə araşdırır. Araşdırma həm yerli, həm də beynəlxalq miqyasda dini ekstremizmə qarşı mübarizə tədbirlərinin təkmilləşdirilməsi üçün vacib tövsiyələr verir.

### *2.Azərbaycanda dini ekstremizm riski*

Azərbaycan xalqı tarixin müxtəlif mərhələlərində terrora məruz qaldığından onun ağrı-acısına, ağır nəticələrinə daha dərindən bələddir. Təəssüf ki, bir sıra dövlətlər və beynəlxalq təşkilatlar bölgədə və dünyada baş verən münaqişələrə ikili standartlarla yanaşır, prinsipial mövqe nümayiş etdirmir, problemlərin həllini bilavasitə münaqişəyə cəlb olunmuş tərəflərin işi hesab edir. Bu, xalqımız üçün son dərəcə mühüm olan Dağlıq Qarabağ probleminin həllinə yanaşmada da özünü açıq göstərir. Dağlıq Qarabağ probleminin bu günə kimi həll olunmamasında bu kimi subyektiv amillərin rolu kifayət qədər böyükdür [Mürsəlov, 2010, s.129].

Ermənistanın terrora dövlət səviyyəsində dəstək verməsi və Azərbaycana qarşı terrorda iştirakı, çoxlu sayda Azərbaycan vətəndaşını qətlə yetirməsi, mədəniyyət abidələrinin dağıtması inkaredilməz faktdır. Ermənistan xüsusi xidmət orqanlarının müxtəlif vaxtlarda ölkəmizdə bir sıra terror aktları törətməsi bu fikri bir daha təsdiq edir [“Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər”, 2007, s.311]. Sözügedən münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana torpaq iddiası, Dağlıq Qarabağı ələ keçirməsi cəhdi ilə başlamış və iki ölkə arasında müharibəyə gətirib çıxarmışdır. Sonrakı illərdə Ermənistan silahlı qüvvələri bir sıra xarici dövlətlərin dəstəyi ilə Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, tarixi abidələri, məscidləri, qəbiristanları, məktəbləri, xəstəxanaları, mədəniyyət evlərini və muzeyləri dağıtmış, bir milyondan artıq Azərbaycan vətəndaşını doğma torpaqlarından didərgin salaraq son dərəcə ağır şəraitdə yaşamağa məhkum etmişdir [Əliyev, 1999, s.18].

Terrorun ağrı-acısını yaşamış bir ölkə kimi Azərbaycan terrorun bütün təzahürlərini pisləyir, terror hadisələrinin qarşısının alınmasına yönəlmiş səyləri tam dəstəkləyir, onu doğuran səbəblərin aradan qaldırılması və qarşısının alınması məqsədilə dünyanın bir çox ölkələri və beynəlxalq təşkilatlarla müntəzəm və sıx əməkdaşlıq edir. Azərbaycan olduqca həssas, böyük dövlətlərin maraqlarının toqquşduğu bölgədə yerləşdiyindən, gələcəkdə yarana biləcək, davamlı inkişafa mane olacaq münaqişələrin vaxtında qarşısının alınması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Müasir dövrdə fundamental insan hüquqlarından olan vicdan və dini etiqad azadlığının təmin edilməsi bir çox dövlətlərin və beynəlxalq qurumların siyasətində və qarşılıqlı əlaqələrində xüsusi rol oynayır. Bu gün dinlə bağlı məsələlərə sırf insan hüquqları və milli-mənəvi dəyərlər prizmasından deyil, həm də təhlükəsizlik baxımından yanaşılması dövlətin borcu və

müstəsna hüququdur. Din dövlətdən ayrı olsa da dövlət ölkədəki dini duruma və vətəndaşların təhlükəsizliyinə görə bilavasitə məsuliyyət daşıyır [İsmayılov, 2014, s.191].

Azərbaycan Respublikasında dini ekstremizm təhlükəsi keçən əsrin 90-cı illərindən meydan çıxmağa başlamış, müstəqilliyin ilk illərində respublikada siyasi stabilliyin pozulması, Ermənistanla silahlı münaqişə və iqtisadi durumun çətinləşməsi ölkədə xeyli problem yaratmışdır. Yetmiş ildən artıq bir müddətdə sovet rejiminin ateizm təbliğatına məruz qalan, din xadimlərinin fəaliyyətinə və dini maarifləndirmənin aparılmasına qadağa qoyulan ölkəmizdə dini fəaliyyət sahəsində bir sıra problemlər özünü açıq göstərir, əhalinin böyük bir hissəsinin din barəsində məlumatsızlığı, dinlərin fəlsəfəsinə, Azərbaycanda yayılması tarixinə və xüsusiyyətlərinə dair biliklərinin yetərsizliyi radikal dini təriqətlərin respublikada yayılmasına əlverişli şərait yaradırdı [Məmmədov, 2008, s.114].

Eyni zamanda, müstəqilliyin ilk illərində bu sahəyə dövlət nəzarəti zəif həyata keçirilir, insanlara humanitar yardım göstərmək məqsədilə ölkəmizə gələn müxtəlif təşkilatlar fəal dini təbliğat aparmağa, zərərli dini təlimləri yaymağa, əsasən də gəncləri təsir altına salmağa çalışırdılar. Bu cəhdlər təkcə dini maarifləndirmə məqsədi daşımır, eyni zamanda dini ekstremist əhval ruhiyyəli qrupların yaranmasına şərait yaradırdı. Əhali arasında rəğbət qazanmaq, tərəfdarlarının sayını artırmaq və bununla da dövlətin siyasətinə fəal müdaxilə imkanları əldə etmək istəyən həmin təşkilatlar dini fəaliyyət sahəsində cərəyan edən hadisələrin öz mənafelərinə uyğun olmasında maraqlı idilər. Bunun üçün onlar bütün imkanlardan maksimum yararlanmağa çalışırdılar. Lakin, dövlətin həyat keçirdiyi son dərəcə qətiyyətli və qabaqlayıcı tədbirlər nəticəsində həmin təşkilatların fəaliyyətinin qarşısı alındı, zərərli ideyaların cəmiyyətə sirayət etməsinə imkan verilmədi [Məmmədov, C.].

Azərbaycanda dini ekstremizm təhlükəsinin yaranmasında müxtəlif daxili və xarici amillər rol oynayır. Qonşu regionlardakı dini ekstremist qrupların təsiri, qloballaşma və internet vasitəsilə radikal ideologiyaların yayılması, sosial-iqtisadi çətinliklər və təhsil sahəsində maarifləndirmə problemləri, dini ekstremizmin yayılmasını asanlaşdıran əsas səbəblər arasındadır. Bu təhlükənin qarşısını almaq üçün Azərbaycan hökuməti və cəmiyyəti birgə səylər göstərməlidir. Təhsil və maarifləndirmə proqramlarının gücləndirilməsi, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və qonşu ölkələrdən gələn radikal təsirlərin məhdudlaşdırılması ilə ölkədə dini ekstremizmə qarşı güclü bir mübarizə aparmaq mümkündür. Yalnız bu şəkildə cəmiyyətin təhlükəsizliyi və sosial harmoniyası təmin edilə bilər [Həziyev, 2018].

Dini ekstremizm, sosial sabitliyi pozan və cəmiyyətin müxtəlif sahələrinə mənfi təsir göstərən mürəkkəb bir sosial problemdir. Azərbaycanda dini ekstremizmin yayılması cəmiyyətin müxtəlif aspektlərinə, xüsusilə sosial harmoniya, dövlətin sabitliyi, iqtisadi inkişaf və mədəniyyətlərarası dialoq sahələrinə təhlükə yaradır. Azərbaycanda dini ekstremizmin yaratdığı əsas təhlükələrdən biri, sosial harmoniya və birgəyaşayış mühitini pozmasıdır. Azərbaycan, fərqli dini inancların və etnik qrupların bir arada yaşadığı bir cəmiyyətdir. Bu müxtəliflik tarixən cəmiyyətdə tolerantlıq mühitinin formalaşmasına şərait yaradıb. Lakin dini ekstremizmin yayılması fərqli dini və etnik qruplar arasında dözümsüzlük və qarşıdurma yaradaraq bu harmoniyanı zədələyə bilər. Radikal dini qruplar, fərqli inanclara qarşı nifrət və düşmənçilik təbliğ edərək cəmiyyətdə parçalanma və bölünməyə səbəb olur.

Dini ekstremizmin yaratdığı dözümsüzlük, insanlar arasında qarşılıqlı anlaşmanı çətinləşdirir və birgəyaşayışı təhlükə altına alır. Bu vəziyyət cəmiyyətdə qütbləşməni artırır və müxtəlif qruplar arasında gərginlik yaradır. Əgər ekstremist ideologiyalar cəmiyyətdə geniş yayılarsa, bu, fərqli qrupların bir-birinə qarşı inamsızlıq hissini gücləndirə və cəmiyyət daxilindəki sülh mühitini zəiflədə bilər. Sosial harmoniya pozulduqda, insanlar bir-birindən uzaqlaşır və cəmiyyət daxilindəki bölünmələr dərinləşir.

Dini ekstremizmin ikinci böyük təsiri dövlətin sabitliyinə olan təhdididir. Ekstremist qruplar çox vaxt dövlətin idarəetmə sisteminə qarşı çıxaraq, öz ideologiyalarını yaymağa

çalışır və bəzən zorakı metodlardan istifadə edirlər. Azərbaycanda dini ekstremizmə qarşı mübarizə aparan dövlət və hüquq-mühafizə orqanları müxtəlif tədbirlər görsələr də, ekstremist qrupların zorakı metodlarla dövlət strukturlarına təsir göstərmə cəhdləri dövlətin idarəetmə gücünü zəiflədə bilər. Bu cür hallar, dövlətin hüquqi sistemini zəiflədir və onun təhlükəsizliyini təmin etmə qabiliyyətini azaldır.

Dini ekstremist qruplar, dövlətin legitimliyini sarsıtmaq və cəmiyyətdə anarxiya yaratmaq üçün təbliğat aparırlar. Onların məqsədi dövlət quruluşuna zərər vurmaq və cəmiyyətdəki qayda-qanunları dəyişdirməkdir. Bu isə dövlətin sabitliyinə ciddi təhdid yaradır və hüquq-mühafizə orqanlarının fəaliyyətini çətinləşdirir. Əgər dini ekstremizm dövlətə qarşı yönəlik daha da güclü bir təhdid halına gəlirsə, bu, cəmiyyətin dövlətə olan inamını zəiflədə və hüququn aliliyini təhlükə altına sala bilər. Belə hallar, həmçinin dövlətin vətəndaşlarına xidmət göstərmə qabiliyyətinə mənfi təsir göstərə bilər [Heydərov, 2020].

### *3.Azərbaycanda dini ekstremizmin qarşısının alınması tədbirləri çərçivəsində multikulturalizm*

Dövlətimiz dini ekstremizmin qarşısının alınması, vətəndaşlarımızın xarici təsirlərdən qorunması, ölkədəki dini durumun sabit saxlanılması, əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirləri bu gün də uğurla davam etdirir. Normativ-hüquqi aktların beynəlxalq normalara uyğunlaşdırılması, dövlətin, həm də dini qurumların hüquq və öhdəliklərinin dəqiq müəyyən olunması, eləcə də insanpərvərlik prinsipləri ilə ziddiyət təşkil edən zərərli fikirləri təbliğ edən təriqət və cərəyanların fəaliyyətinin məhdudlaşdırılması məqsədilə qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir [Məmmədov, 2018].

Bu sahədə görülən işlərdən biri xaricdə dini təhsil almış və zərərli dini təsirlərə məruz qalmış gənclərin məscidlərə din xadimi təyin edilməsinin qarşısının alınması məqsədilə 2015-ci ildə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa bir sıra əlavə və dəyişikliklər edilməsidir. Sözügedən Qanunun 21-ci maddəsinin 3-cü bəndinə əsasən "İslam dininə aid ayin və mərasimlərin aparılması yalnız Azərbaycan Respublikasının vətəndaşları tərəfindən həyata keçirilə bilər. Xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşlarına islam dininə aid ayin və mərasimlərin aparılması qadağandır" ["Azərbaycan Respublikasında dövlət-din münasibətlərini tənzimləyən rəsmi sənədlər", 2015, s.74]. Burada əsas məqsəd xaricdə təhsil alarkən yad ideoloji təsirlərə məruz qalmış şəxslərin ölkədə din xadimi kimi fəaliyyət göstərmələrinin, dini ibadət yerlərində və ictimaiyyət arasında zərərli dini təbliğat aparmalarının qarşısının alınmasıdır.

Ekstremizmə qarşı mübarizənin gücləndiriməsi və radikallıq meyllərinin qarşısının alınması ilə bağlı müddəalar Azərbaycan Respublikasının Qanunlarında da öz əksini tapmışdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə), 28, 283-1.3-cü və 283-1.3-cü (Azərbaycan Respublikası vətəndaşlarını və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, yaxud dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma və ya belə qrupa rəhbərlik etmə, eləcə də həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə, yaxud bu ağır cinayətlərə hazırlıq) maddələri ekstremizmə qarşı mübarizədə xüsusi əhəmiyyətə malikdir ["Azərbaycan Respublikasında dövlət-din münasibətlərini tənzimləyən rəsmi sənədlər", 2015, s.188].

2015-ci ilin dekabr ayında Azərbaycanda “Dini ekstremizmə qarşı mübarizə haqqında” Qanun qəbul edilmişdir. Bu Qanunun qəbul edilməsi milli, sosial və ya dini nifrətin salınmasının, milli ləyaqətin alçaldılmasının, milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasının və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlərin törədilməsinin qarşısının alınmasına ciddi töhfələr vermişdir.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, ölkədə dini ekstremizmlə mübarizə dövlətin təhlükəsizliyinin və ictimai sabitliyin qorunması üçün mühüm əhəmiyyət kəsb edir. 2015-ci il tarixində qəbul edilmiş “Dini Ekstremizmə Qarşı Mübarizə” qanunu, ölkədə dini ekstremizmin yayılmasının qarşısının alınması və bu istiqamətdə dövlət orqanlarının səlahiyyət və vəzifələrini müəyyənləşdirir. Qanunda dini ekstremizmin Azərbaycan Respublikasının konstitusiya quruluşuna, ərazi bütövlüyünə və dövlətin dünyəvi xarakterinə təhdid yaradan hərəkətlər kimi xarakterizə olunması, ekstremist fəaliyyətlərin konkret hallar üzrə təsnifatı, bu fəaliyyətlərin maliyyələşdirilməsinin, qanunsuz silahlı qrupların yaradılmasının və onların təbliğatının qadağan olunması göstərilir. Qanunun əsas məqsədi insan hüquq və azadlıqlarını qorumaq, dini ekstremizmin mənfi təsirlərindən cəmiyyəti müdafiə etmək və radikal ideologiyaların yayılmasının qarşısını almaqdır [Azərbaycan Respublikasının Qanunu, 2015]. Bu qanun çərçivəsində dini ekstremizmlə mübarizə aparan dövlət orqanları müxtəlif əməliyyatlar vasitəsilə dini ekstremist qrupları zərərsizləşdirir, dini ekstremizmin maliyyələşdirilməsi hallarını aşkar edir və radikal təbliğatın yayılmasını məhdudlaşdırır. Bundan əlavə, ictimai maarifləndirmə tədbirləri və dini liderlərin rolu da dini ekstremizmlə mübarizədə mühüm vasitə kimi vurğulanır. Azərbaycan dövləti qanunvericilik və təşkilati tədbirlərlə yanaşı, media vasitəsilə də ictimaiyyəti məlumatlandıraraq vətəndaşların bu prosesə cəlb olunmasını və cəmiyyətin təhlükəsizliyini təmin etməyi hədəfləyir.

Azərbaycanda dini ekstremizmlə mübarizə, ölkənin sosial sabitliyini və təhlükəsizliyini təmin etmək baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət və cəmiyyət birlikdə bu təhlükəyə qarşı mübarizə apararaq, dini ekstremizmin yayılmasının qarşısını almağa çalışmalıdır. Bu mübarizə müxtəlif səviyyələrdə tədbirlərin həyata keçirilməsini tələb edir. Təhsildən başlayaraq sosial-iqtisadi şərtlərin yaxşılaşdırılmasına, hüquqi çərçivələrin gücləndirilməsindən dini liderlərin təsirinin artırılmasına qədər bir çox sahədə görüləcək tədbirlər dini ekstremizmin yayılmasının qarşısını ala bilər. Aşağıda Azərbaycanda dini ekstremizmlə mübarizənin əsas üsulları və bu sahədə görülməsi lazım olan tədbirlər ətraflı şəkildə izah olunmuşdur.

Dini ekstremizmlə mübarizədə təhsil və maarifləndirmə ən effektiv üsullardan biridir. Cəmiyyətin sağlam inkişafı üçün gənclərin dini tolerantlıq və dözümlülük prinsipləri əsasında yetişdirilməsi böyük əhəmiyyət kəsb edir. Məktəblərdə və ali təhsil müəssisələrində mədəniyyətlərarası dialoqun təşviqi və müxtəlif inanclara hörmətin aşılanması, gənclərin radikal ideologiyalardan uzaq durmasına kömək edir.

Maarifləndirmə proqramları vasitəsilə dini ekstremizmin cəmiyyətə və fərdlərə vurduğu zərərlər barədə məlumatların artırılması, insanların radikal təbliğata qarşı müqavimətini gücləndirə bilər. Xüsusilə yeniyetmələr və gənclər arasında dini ekstremizmin təhlükələri ilə bağlı məlumatlandırıcı seminarlar, təlim proqramları və mədəniyyətlərarası dialoqa dair tədbirlərin keçirilməsi vacibdir. Bu cür maarifləndirmə tədbirləri gəncləri radikal qrupların təsirindən qorumaqla yanaşı, onlara dini inanclar və fərqli dəyərlər arasında harmoniyanı qoruma yollarını öyrədir.

Dini ekstremizmin sosial səbəblərdən də yarandığını nəzərə alsaq, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması bu mübarizənin mühüm hissəsidir. İşsizlik, yoxsulluq və bərabərsizlik kimi sosial problemlər insanları dini ekstremist qrupların təsirinə daha açıq hala gətirir. Xüsusilə maddi çətinliklər yaşayan insanlar, dini ekstremist qrupların maddi dəstək və mənəvi mənsubiyyət təkliflərinə daha həssas yanaşırlar.

Bu problemi həll etmək üçün dövlət, işsizlik və yoxsulluq məsələlərini aradan qaldırmaq məqsədilə iş yerləri yaratmalı, sosial təminat proqramlarını genişləndirməlidir. Dövlətin həyata keçirdiyi sosial proqramlar və bərabər imkanların təmin edilməsi, insanların radikal ideologiyalara yönəlməsinin qarşısını almaq üçün əsas addımlardandır. Eyni zamanda, sosial xidmətlər, təhsil imkanlarının artırılması və səhiyyə xidmətlərinin əlçatan edilməsi insanların həyat səviyyəsini yaxşılaşdıraraq, onları ekstremist qruplardan uzaqlaşdırmağa kömək edir.

Dini ekstremizmlə mübarizədə hüquqi tədbirlər də əhəmiyyətli rol oynayır. Dini ekstremizmi törədən qruplar, çox vaxt qanunların boşluqlarından istifadə edərək öz təbliğatlarını yayır və insanları zorakı ideologiyalara cəlb edirlər. Bu səbəbdən, güclü hüquqi çərçivələr yaradılmalı və qanunvericilikdə dini ekstremizmlə bağlı boşluqlar doldurulmalıdır. Dövlət, dini ekstremizmlə mübarizə məqsədilə hüquq-mühafizə orqanlarının fəaliyyətini gücləndirərək, radikal qrupların qanunsuz fəaliyyətlərini vaxtında aşkar edib dayandırmalıdır.

Azərbaycanda "Dini Ekstremizmə Qarşı Mübarizə haqqında" qanun kimi normativ aktlar dini ekstremizmin qarşısının alınmasında əhəmiyyətli rol oynayır. Hüquq-mühafizə orqanları, ekstremist fəaliyyətlərə nəzarət edərək, radikal qrupların fəaliyyətlərini məhdudlaşdırmalı və zərurət yarandıqda cinayət məsuliyyətinə cəlb etməlidirlər. Bu tədbirlər, dini ekstremizmlə bağlı fəaliyyətlərin qarşısını alaraq cəmiyyətin təhlükəsizliyini təmin etməkdə mühüm rol oynayır.

Dini liderlər cəmiyyətdə sülhpərvər və tolerant dəyərləri təbliğ etməklə dini ekstremizmlə mübarizədə mühüm rol oynayırlar. Dini liderlər, çıxışlarında sülhpərvər mesajları vurğulayaraq, radikal təfsirlərdən uzaq durmalı və cəmiyyətin dini ekstremizmin təsirlərindən qorunmasına dəstək olmalıdırlar. Bu liderlər, dini inancları düzgün şəkildə təbliğ edərək, radikal qrupların təhrif olunmuş dini təbliğatına qarşı dayana bilən güclü cəmiyyətin formalaşmasına kömək edirlər.

Dini liderlərin cəmiyyət arasında təsir gücünün artırılması, insanlara dini ekstremizm haqqında doğru məlumatların çatdırılmasını və onların radikal ideologiyalardan qorunmasını təmin edir. Bu liderlər, fərqli dini inanclar və mədəniyyətlər arasında dözümlülüyü və qarşılıqlı hörməti təşviq edərək cəmiyyətdə harmoniya və birgəyaşayışı gücləndirirlər. Azərbaycanda dini liderlərin ekstremizmlə mübarizədə daha fəal iştirakı, cəmiyyətdə birgəyaşayışın inkişaf etdirilməsi üçün mühüm addımdır.

Müasir dövrdə medianın və sosial şəbəkələrin təsir gücü artdıqca, dini ekstremist qruplar öz ideologiyalarını yaymaq üçün bu platformalardan geniş istifadə edirlər. Sosial şəbəkələrdə ekstremist məzmunun yayılmasının qarşısını almaq üçün xüsusi tədbirlər görülməlidir. Medianın dini ekstremizmlə bağlı məsuliyyətli və balanslı yanaşması, cəmiyyətdə radikal təbliğatın təsirini azaltmağa kömək edir [Əlizadə, 2015, s.34-42].

Dövlət, sosial şəbəkələrdə ekstremizmi təşviq edən məzmunları izləməli və bu məzmunların yayılmasının qarşısını almaq üçün tədbirlər görməlidir. Sosial şəbəkələrdə ekstremist məzmunun müəyyən edilməsi və aradan qaldırılması bu sahədə mübarizənin vacib hissəsidir. Eyni zamanda, medianın ekstremizmlə bağlı məsuliyyətli yanaşması, ekstremist qrupların təbliğatının təsirini minimuma endirir. Medianın və sosial şəbəkələrin nəzarəti, cəmiyyətdə radikal təbliğatın qarşısını alaraq dini ekstremizmlə mübarizədə önəmli rol oynayır.

Azərbaycanda dini ekstremizm təhlükəsinin qarşısını almaq üçün dövlət və cəmiyyət birgə səylər göstərməlidir. Təhsil və maarifləndirmə proqramlarının gücləndirilməsi, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması, hüquqi tədbirlərin effektiv tətbiqi və dini liderlərin təsirinin artırılması dini ekstremizmlə mübarizədə vacib addımlardır. Dövlət və cəmiyyət arasında güclü əməkdaşlıq, dini ekstremizmin yayılmasının qarşısını almaq və cəmiyyətdə harmoniya və birgəyaşayışı gücləndirmək üçün əsas şərtlərdən biridir. Bütün bu tədbirlər dini ekstremizmin təsirlərini minimuma endirmək və cəmiyyətdə təhlükəsizlik və sabitliyi

qorumaq üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycanda dini ekstremizmin yayılmasına mane olmaq üçün atılacaq addımlar, cəmiyyətin birgəyaşayışını qorumağa və ölkənin davamlı inkişafını təmin etməyə yönəlmişdir.

Azərbaycanda dini ekstremizm təhlükəsi ciddi bir sosial və təhlükəsizlik məsələsidir. Dini ekstremizmin qarşısını almaq üçün dövlət və cəmiyyət birgə səylər göstərməlidir. Təhsil və maarifləndirmə proqramlarının gücləndirilməsi, sosial-iqtisadi şəraitin yaxşılaşdırılması, hüquqi tədbirlərin tətbiqi və dini liderlərin rolu dini ekstremizmlə mübarizədə effektiv vasitələrdir. Dövlət və cəmiyyət birgə çalışaraq dini ekstremizmin yayılmasının qarşısını almalı və cəmiyyətdə birgəyaşayış və tolerantlıq mühitini qorumağa davam etməlidir.

Azərbaycanda dini ekstremizmin qarşısını almaq məqsədilə həyata keçirilən mübarizə tədbirləri, cəmiyyətin dayanıqlı inkişafı və birgəyaşayışı üçün mühüm əhəmiyyət daşıyır. Azərbaycanın uzun tarixə malik mədəni müxtəlifliyi və tolerantlıq ənənəsi, ölkənin multikulturalizm siyasətinin əsasını təşkil edir. Dini ekstremizmin sosial sabitliyə və milli təhlükəsizliyə təhdid yaratdığı bir dövrdə multikulturalizm siyasəti həm dini ekstremizmin yayılmasının qarşısını almaqda, həm də cəmiyyətdə harmoniya və tolerantlıq mühitini qorumaqda mühüm rol oynayır [AZƏRTAC, 2016, s.7].

Azərbaycan, əsrlər boyu müxtəlif etnik və dini qrupların birgə yaşadığı və mədəniyyətlərini bir-birinə hörmətlə qoruduğu bir coğrafiyada yerləşir. Bu tolerantlıq ənənəsi, ölkədə multikulturalizm siyasətinin təməlinə çevrilmişdir. Azərbaycan cəmiyyəti müxtəlif din və mədəniyyətlərin birgə mövcudluğunu təşviq edən prinsiplərə əsaslanır və fərqli dini inancların sülhpərvər şəkildə yaşamasını dəstəkləyir. Bu vəziyyət, dini ekstremizmin yayılmasının qarşısını almaq üçün güclü bir sosial baza təmin edir və cəmiyyətdə radikalizmin kök salmasının qarşısını almaqda mühüm vasitəyə çevrilir.

Azərbaycanın dövlət səviyyəsində qəbul etdiyi multikulturalizm siyasəti, cəmiyyətin mədəni müxtəlifliyini qorumaqla yanaşı, dini ekstremizmin qarşısını almaq üçün də güclü bir çərçivə yaradır. Multikulturalizm, cəmiyyətin bütün təbəqələrinin fərqliliklərə hörmət əsasında bir arada yaşamasını təmin edərək, radikal təbliğatın yayılmasını çətinləşdirir. Azərbaycan, müxtəlif etnik və dini icmalar arasında harmoniyanın təşviqi yolu ilə cəmiyyətin radikal ideologiyalara qarşı dayanıqlığını artırır.

Multikulturalizm siyasəti Azərbaycanda sosial sabitliyin qorunmasında mühüm rol oynayır. Dini ekstremizmin qarşısını almaq üçün tolerantlıq və qarşılıqlı anlaşma cəmiyyətin təməlində yer almalıdır. Multikulturalizm siyasəti cəmiyyətin fərqli qrupları arasında sosial harmoniya və birgəyaşayış mühitinin inkişafını təmin edir. Bu harmoniya, radikal ideologiyaların yayılmasının qarşısını almaqda və ekstremist qrupların cəmiyyətdə tərəfdar qazanmasının çətinləşdirilməsində mühüm bir vasitədir.

Sosial sabitlik və harmoniya, dini ekstremizmin təsirinə qarşı dayanıqlı cəmiyyət formalaşdırır. Azərbaycanda multikulturalizm siyasəti vasitəsilə fərqli dini və mədəni icmalar arasında sosial inteqrasiya təşviq edilir. Beləliklə, cəmiyyətin bütün təbəqələri özlərini cəmiyyətin bir hissəsi kimi hiss edir və bu da ekstremist ideologiyaların təsirinə daha az həssas olmağa səbəb olur. Multikulturalizm siyasəti cəmiyyətin fərqli qrupları arasında anlaşma yaradır və bu anlaşma dini ekstremizm təhlükəsinə qarşı cəmiyyətin müqavimətini gücləndirir.

Multikulturalizm siyasəti çərçivəsində həyata keçirilən təhsil və maarifləndirmə proqramları, dini ekstremizmin yayılmasının qarşısını almaqda vacib rol oynayır. Azərbaycanda məktəblərdə və təhsil müəssisələrində mədəniyyətlərarası dialoq və tolerantlıq prinsiplərinin tədrisi, gənclərin radikal ideologiyalara qarşı daha məlumatlı və həssas olmalarını təmin edir. Təhsil sistemində multikulturalizm prinsiplərinə yer verilməsi, gənclərin dini ekstremizmin zərərləri barədə məlumatlandırılmasına və fərqli mədəniyyətlərə hörmət ruhunda yetişdirilməsinə şərait yaradır.

Maariflәndirmә proqramları vasitәsilә multikulturalizmin tәbliği dini ekstremizmin qarşısını almaqda önәmli addımlardan biridir. Bu proqramlar fәrqli mәdәniyyәtlәrә hörmәtin aşılanmasını, dini ekstremizmin yayılmasının sosial nәticәlәrinin cәmiyyәtә izah edilmәsini tәmin edir. Multikulturalizm tәhsili, gәnclәrin radikal ideologiyalardan qorunmasına vә cәmiyyәt daxilindә sülhpәrvәr münasibәtlәrin inkişaf etdirilmәsinә kömәk edir.

Azәrbaycanda multikulturalizm siyasәti hüquqi mübarizә çәrçivәsindә dә dini ekstremizmin qarşısını almağa yönәlmiş tәdbirlәri dәstәklәyir. Dövlәt, dini ekstremizmlә mübarizә mәqsәdilә hüquq-mühafizә orqanlarının fәaliyyәtini multikulturalizm prinsiplәri ilә uyğunlaşdırır. Multikulturalizmә әsaslanan qanunlar vә hüquqi tәdbirlәr, dini ekstremizmin hüquqi müstәvidә qarşısını almaqda әhәmiyyәtli bir vasitәdir. Dövlәt tәrәfindәn qәbul edilmiş qanunlar, ekstremist qrupların fәaliyyәtini mәhdudlaşdırmaq vә cәmiyyәtdә radikal ideologiyaların yayılmasını dayandırmaq üçün güclü bir çәrçivә yaradır.

## *4.Nәticә*

Hüquqi mübarizәnin dini ekstremizmin qarşısını almaqda mühüm rolu var. Azәrbaycan Respublikasının qanunvericilik çәrçivәsindә dini ekstremizmә qarşı qәtiyyәtli mübarizә aparılması, bu tәhlükәnin qarşısının alınması üçün mühüm bir addımdır. Mәqalәdә qeyd edilir ki, Azәrbaycan qanunvericiliyi dini ekstremizmi cinayәt sayır vә bu kimi fәaliyyәtlәrlә mәşğul olan qrupların fәaliyyәtini mәhdudlaşdırır. Hüquq-mühafizә orqanlarının dini ekstremizmlә bağlı fәaliyyәtlәri ciddi nәzarәt altında saxlaması vә ekstremist qrupların qanunsuz fәaliyyәtlәrinin qarşısını alması, dövlәtin tәhlükәsizliyinin tәmin edilmәsi baxımından vacibdir. Hüquqi mübarizә çәrçivәsindә, hәmçinin, dini ekstremist tәbliğatın sosial şәbәkәlәrdә yayılmasının qarşısının alınması üçün xüsusi tәdbirlәr hәyata keçirilir.

Nәticәdә, mәqalә Azәrbaycanın dini ekstremizmlә mübarizәsini çoxşaxәli vә sistemli bir yanaşma ilә hәyata keçirdiyini ortaya qoyur. Multikulturalizm siyasәti, tәhsil vә maariflәndirmә proqramları, sosial-iqtisadi vәziyyәtin yaxşılaşdırılması vә hüquqi çәrçivәlәrin güclәndirilmәsi kimi tәdbirlәr, Azәrbaycanda dini ekstremizmin yayılmasına qarşı tәsirli bir mexanizm yaradır. Azәrbaycanın dini ekstremizmlә mübarizәdә әldә etdiyi nailiyyәtlәr, ölkәnin hәm daxili sabitliyini, hәm dә beynәlxalq nüfuzunu güclәndirir. Mәqalә Azәrbaycanın gәlәcәkdә dә dini ekstremizmin qarşısının alınmasında bu çoxşaxәli yanaşmanı davam etdirmәsinin vacibliyini vurğulayır vә cәmiyyәtin tәhlükәsizliyini qorumaq üçün bu istiqamәtdә daha da inkişaf etdirilmәli olduğunu bildirir.

## *5.REFERENCES*


1. *Official documents regulating state-religion relations in the Republic of Azerbaijan.* (2015). Baku: Elm ve Tehsil. (in Azerbaijani)
2. AZERTAC. (2016, April 27). Religious leaders and violent extremism: Challenges in preventive measures. *Azerbaycan*, 7. (in Azerbaijani)
3. Law of the Republic of Azerbaijan. (2015, December 4). Law on the fight against religious extremism (No. 27-VQ). Baku. https://e-qanun.az/framework/31509 (in Azerbaijani)
4. Aliyev, H. (1999). *Our religion is the national and spiritual wealth of our people*. Baku: Abilov, Zeynalov ve oghullari, 165 p. (in Azerbaijani)
5. Alizade, A. (2015, November). Radicalism and extremism in religious-political aspects. *Dovlәt ve Din*, 11(40), 34–42. (in Azerbaijani)
6. Memmedov, N. (Ed.). (2018). *Educating youth against religious radicalism* (Project director C. Abbasov). Baku: Elm ve Tehsil, 117 p. (in Azerbaijani)
7. Heydar Aliyev and religious policy in Azerbaijan: Realities and perspectives. (2007). Baku: Abilov, Zeynalov ve oghullari, 399 p. (in Azerbaijani)

8. Heydərov, S. (2020). *Religion and ideological security*. Baku: Tuna, 273 p. (in Azerbaijani)
9. Haziyev, A. (2018). *Psychological aspects of religious radicalism*. Baku: Tuna, 66 p. (in Azerbaijani)
10. Ismayilov, G. (2014). *Tolerance: What we know and what we don't know*. Baku: Nurlar. (in Azerbaijani)
11. Memmedov, A. (2008). *Wahhabism: Its history, ideological predecessors, and main principles*. Baku: Nurlar. (in Azerbaijani)
12. Memmedov, C. (n.d.). Preventing religious extremism: Current situation and threats. *Social Research Center.* https://stm.az/en/news/427/dini-ekstremizmin-qarsisinin-alinmasi-movcud-veziyyet-ve-tehdidler (in Azerbaijani)
13. Mursalov, R. (2010). *Contemporary intra-Islamic processes*. Baku: Baku Chap Evi. (in Azerbaijani)

## *ƏDƏBİYYAT*

1. *Azərbaycan Respublikasında dövlət-din münasibətlərini tənzimləyən rəsmi sənədlər.* (2015). Bakı: Elm və Təhsil.
2. AZƏRTAC. (2016, Aprel 27). Dini rəhbərlər və zorakı ekstremizm: qabaqlayıcı tədbirlərlə bağlı çətinliklər. *Azərbaycan*, 7.
3. Azərbaycan Respublikasının Qanunu. (2015, Dekabr 4). Dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu (№ 27-VQ). Bakı. https://e-qanun.az/framework/31509
4. Əliyev, H. (1999). *Dinimiz xalqımızın milli-mənəvi sərvətidir*. Bakı: Əbilov, Zeynalov və oğulları, 165 s.
5. Əlizadə, A. (2015, Noyabr). Radikalizm və ekstremizm dini-siyasi aspektdə. *Dövlət və Din*, 11(40), 34–42.
6. Məmmədov, N. (Tərtibçi). (2018). *Gənclərin dini radikalizmə qarşı maarifləndirilməsi* (Layihə direktoru C. Abbasov). Bakı: Elm və Təhsil, 117 s.
7. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. (2007). Bakı: Əbilov, Zeynalov və oğulları, 399 s.
8. Heydərov, S. (2020). *Din və ideoloji təhlükəsizlik*. Bakı: Tuna, 273 s.
9. Həziyev, Ə. (2018). *Dini radikalizmin psixoloji aspektləri*. Bakı: Tuna, 66 s.
10. İsmayılov, G. (2014). *Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz*. Bakı: Nurlar.
11. Məmmədov, A. (2008). *Vəhhabilik: tarixi, ideya sələfləri və əsas prinsipləri*. Bakı: Nurlar.
12. Məmmədov, C. (n.d.). Dini ekstremizmin qarşısının alınması: mövcud vəziyyət və təhdidlər. *Sosial Tədqiqatlar Mərkəzi.* https://stm.az/en/news/427/dini-ekstremizmin-qarsisinin-alinmasi-movcud-veziyyet-ve-tehdidler
13. Mürsəlov, R. (2010). *Müasir islamdaxili proseslər*. Bakı: Bakı Çap Evi.